Ədalət.- 2025.- 10 oktyabr (№34).- S.16.

# Onun nakam ömrü

*Bu gün Əməkdar artist Rəşid Səməndərin doğum günüdür. 1975-ci ildə aktyor Səməndər Rzayevin ailəsində dünyaya göz açan Rəşid də atasının sənət yolunu dava etdirməyi qarşısına məqsəd qoymuşdu. Elə bu minvalla o, 1993-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "dram və kino aktyoru" fakültəsinə qəbul olub. Tələbəlik illərində qabiliyyəti ilə diqqət çəkərək bir çox uğurlu rolların ifaçısına çevrilib. Atalar yaxşı deyib: "Ot kökü üstə bitər". Səməndər Rzayev kimi bir sənətkarın oğlu da əlbəttə, istedadlı olacaqdı. Hələ tələbəlik illərindən Akademik Milli Dram Teatrında aktyorluq karyerasına başlayan Rəşid ardıcıl bir çox tamaşalarda yaddaqalan obrazlar yaradır. O, 2006-cı ildə Respublikanın Əməkdar Artisti fəxri adına layiq görülür.*





*Təəssüf ki, belə bir istedadlı aktyorun teatrda problemləri yaranmağa başlayır. Onun adı teatrdakı qalmaqallarda hallanır. Elə bu səbəbdən də Rəşid işdən uzaqlaşdırılır. O, mətbuata açıqlamasında hansı səbəbdən işdən çıxarıldığını bilmədiyini söyləyib. Ancaq teatrın rəhbərliyi aktyoru idarə olunmayan, səbrsiz, söyüş söyən adam kimi təqdim edirdi.*

*Akademik Milli Dram Teatrından ayrılan Rəşid Səməndər Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor kimi fəaliyyət göstərməyə başlayır.*

*Aktyor, bir zamanlar atası Səməndər Rzayevin aparıcı olduğu "Bulaq" verilişində də uzun illər aparıcı olub.*

*Sonralar köhnə iş yerinə - Akademik Milli Dram Teatrına qayıtmaq istəsə də, onu yenidən teatra işə götürmürlər. Tetarın bədii rəhbəri, baş rejissoru Azər Paşa Nemət onun səhhətindəki problemləri əsas gətirərək, Rəşid Səməndərə "teatrda boş yer yoxdur" cavabını verir.*

*Bacısı teatrşünas, jurnalist Rübabə Səməndərə qardaşı haqqında sual verdikdə isə onun haqqında danışmağa hazır olmadığını söylədi:*

*"Qardaşımın ölümü faciəli oldu. Onun haqqında danışmaq ağırdır. Onunla bağlı hər hansı bir xatirəni danışmaq mənə ağır gəlir. Bunun üçün hələ hazır deyiləm. Müəyyən nüanslar var ki, o haqda danışmaq istəmirəm. Hələ ki, ürəyimdə qalsın. Bəlkə nə zamansa danışaram, amma indi yox",*

*Ömrünün sonuna qədər ailə qurmayan əməkdar artistin karyerasında yaşadığı sarsıntı onun faciəsi ilə sonlanır. O, 2020-ci ildə noyabrın 20-də yaşadığı binadan özünü ataraq intihar edir.*

**Əntiqə KƏRİMZADƏ**